*IRENA-nın baş direktoru:*

# "COP29 iqlim dəyişikliyi ilə mübarizə üçün həlledici mərhələdir"

**Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) iqlim dəyişikliyi ilə mübarizə üzrə beynəlxalq öhdəliklərin gücləndirilməsi üçün həlledici mərhələdir.**

AZƏRTAC "Solar-Quarter"ə istinadla xəbər verir ki, bu sözləri Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru Françesko La Kamera BƏƏ-nin Əbu-Dabi şəhərində keçirilən IRENA Şurasının 28-ci Toplantısında bildirib.




Onun sözlərinə görə, COP29 əməkdaşlıq və əhəmiyyətli nəticələr əldə etmək üçün dövlətlərin son şansıdır.

"2030-cu ilə qədər bərpaolunan enerjiyə 31,5 trilyon dollar həcmində investisiya qoyulmasına, şəbəkənin təkmilləşdirilməsinə, dayanıqlılıq tədbirlərinə və enerji səmərəliliyinə təcili ehtiyac var. Bərpaolunan enerji investisiyaları isə 2023-cü illə müqayisədə üç dəfə artırılmalıdır", - deyə o bildirib.

Françesko La Kamera ölkələri COP29-dan iqlim maliyyələşməsinin artırılması və qlobal enerji keçidinin irəliləyişində səyləri birləşdirmək üçün platforma kimi istifadə etməyə çağırıb. O, həmçinin COP29-un uğurlarına əsaslanaraq xalis sıfır emissiyaya nail olmaq və iqlim dəyişikliyi ilə bağlı təcili problemlərin həlli istiqamətində qlobal səylərdə daha bir mərhələyə çatmaq məqsədilə COP30-a evsahibliyi edəcək Braziliya ilə əməkdaşlığa başladıqlarını əlavə edib.

Azərbaycan.- 2024.- 29 oktyabr (№ 238).- S.7.